


# "QİSAS-44"ÜN TƏQDİMATI

AMEA Folklor İnstitutunda şəhid mayor Vüsal İslam oğlu Vəliyevin xatirəsi işığında yazılmış "Qisas-44" kitabının təqdimatı oldu. Tədbiri giriş nitqi ilə açan institutun direktoru akademik Muxtar İmanov şəhid Vüsal Vəliyevin şərəfli həyat yolu haqda danışıb bir sıra maraqlı məqamlara toxunub.

Şəhidin döyüş yoldaşı zabit Qəzənfər Dünyamalıyev çıxışında mayor Vüsal Vəliyevin şəxsi döyüşçülük keyfiyyətlərindən söz açıb, institutun direktor müavini Afaq Xürrəm qızı, İnstitutun əməkdaşlarından Mahir Cavadov, Şakir Albalıyev, Ataş Əhmədli və başqaları çıxışlar edib, 44 günlük Vətən müharibəsindəki Qələbəmizin qazanılmasında qəhrəman vətən övladlarından və şəhid mayor Vüsal Vəliyevin qəhrəmanlığından söz açıblar.

Sonda şəhidin qardaşı olan institutun əməkdaşı filologiya üzrə fəlsəfə doktoru və həm də kitabın redaktoru və tərtibçisi Əpoş İslam oğlu Vəliyev qardaşı haqqında xatirələrini bölüşüb, iştirakçılara və çıxış edənlərə təşəkkürlərini ifadə edib.

Şakir Əlifoğlu Albalıyev



Kredo .- 2022.- 17 noyabr.- S.13.